UOT 821.512.162

**Şükürova Jalə,**
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş.,İstiqlaliyyət küç.26.*
e-mail:shukurova.jalya@mail.ru

# ƏZİZ DÖVLƏTABADİ TƏZKİRƏSİNDƏ ƏŞƏRİ TƏBRİZİ

**Açar sözlər:** *ədəbiyyatşünaslıq, həcv, mədhiyyə, İsfahan*

Müasir Azərbaycan ədəbiyyatşünaslığı zəngin tarixi ədəbi bazaya malikdir. Yaşadığımız dövrdə ədəbiyyatşünaslıq elmi əsrlərin mirası olan klassik irsimizin öyrənilib tədqiq olunmasında milli ənənələrə dayanaraq onlardan faydalanmaq imkanı qazanmışdır. XX yüzilliyin əvvəllərindən başlayaraq bir sıra görkəmli alim, yazıçı və maarifçi şəxsiyyətlərin ədəbiyyat sahəsində atdıqları addımlar ədəbiyyatşünaslığın inkişafına təkan vermişdir. Bu baxımdan Cənubi Azərbaycan alimi və ədəbiyyatşünası Əziz Dövlətabadini XX əsrin ən məhsuldar ziyalısı hesab etmək olar.

Əziz Dövlətabadinin dünyaya gəlməsi Təbriz üsyanından sonrakı dönəmə təsadüf etmişdir. Belə ki, 1917-1919-ci illərdə Cənudi Azərbaycanda İngiltərənin müstəmləkiçilik siyasətinə qarşı güclü xalq hərəkatı başlamışdır. Şeyx Xiyabaninin rəhbərliyi altında Təbriz üsyançıları valini şəhərdən qovmuşdular. 1920-ci il iyunun 23-də yaranan Milli Hökumət sentyabr ayında Cənubi Azərbaycanda milli azadlıq hərəkatının yatırılması ilə süquta uğramışdır. Baş verən bütün hadisələr Cənubi Azərbaycanda yaşayan xalqların tarixinə və gələcək həyatına təsirsiz ötüşməmiş, bu dönəmdə Mənuçehr Murtuzəvinin, Yəhya Şeydanin, Əbdüləli Karənginin o cümlədən, Əziz Dövlətabadinin gələcək yaradıcılığına öz təsirini müəyyən dərəcədə göstərmişdir. Əziz Dövlətabadinin bir şəxsiyyət kimi formalaşmasında, bir ədəbiyyatşünas kimi yetişməsində bu dövrün həlledici rolunu istisna etmək səhv olardı.

Əziz Dövlətabadi 1922-ci il sentyabr ayının 1-də Təbrizin Mənsur xiyabanında dünyaya göz açmışdır. Atası Musa Sərab yaxınlığında yerləşən Dövlətabad kəndindəndir. Təbriz bələdiyyəsində hesabdar işləyən Musa kişinin ilk övladı olan Əziz kiçik yaşlarından elmə həvəsi ilə seçilirdi.

Əziz Dövlətabadi vətənində baş vermiş mühüm siyasi olaylar dönəmindən sonra 1951-ci ildə aspiranturaya daxil olsa da, bir sıra problemlərlə üzləşdiyindən təhsilini yarımçiq qoymaq məcburiyyətində qalmışdır.

1955-ci ildə Hacı Məhəmməd Naxçivani və Hacı Hüseyn Naxçivani kimi xeyriyyəçilərin qiymətli kitablarını bağışladığı və Təbriz əhalisinin yardımı ilə təsis edilmiş Milli kitabxananın ilk başçısı olmuşdur.

1961-ci ildə Razi və Nümunə məktəblərinə rəhbərlik edən Ə.Dövlətabadi eyni zamanda Təbriz v Azad İslam Universitetlərində ədəbiyyat tarixini tədris etmişdir. 1974-cü ildən təqaüdə çixaraq sırf yaradıcılıqla məşğul olmağa başlayan alimin indiyə qədər on üç əsəri nəşr olunmuşdur. 2009-cu il aprel ayının 30-da ağciyər xərçəngindən dünyasını dəyişən alim Təbrizdə Məqbərətüş-şüərada torpağa tapşırılmışdır.

Əziz Dövlətabadinin Kamal Xocəndinin, Məlik Mahmud Təbrizinin divanlarını redaktə etmiş, iki təzkirədən əlavə (“Süxənvərani-Azərbaycan”,“Qafqazda yaşayan farsdilli şairlər”) “Azərbaycan kitabxanaları”, “Fars mətnlərində türk və monqol sözlərinin lüğəti” kimi sanballı əsərlər müəllifidir. Bundan əlavə alim həm də bədii yaradıcılıqla da məşğul olmuşdur. Dərviş təxəllüsü ilə 3 min beytə yaxın şeiri vardır. Bu şeirlər arasında qəsidə, minacat, məsnəvi, tərcibənd və rübailər mövcud olsa da, şair üstünlüyü qəzəl janrına verilmişdir.

Əziz Dövlətabadinin qələmə aldığı iki cildlik "Süxənvərani-Azərbaycan" əsəri Məhəmməd Tərbiyətin "Danişməndani-Azərbaycan" təzkirəsindən sonra yazılan XX əsr təzkirələri arasında xüsusi yeri olan əsərlərdən biridir. Əsərin müəllifi Tərbiyətdən sonra Azərbaycan ədəbiyyatına təzkirəçilik prizmasından daha geniş aspektdə yanaşmışdır. Ə.Dövlətabadinin bu əsəri təzkirəçilik ənənəsinə yeni üslub və yanaşma tərzi gətirmişdir. O öz sələfinin yolu ilə gedərək, bu sahədə mövcud olan boşluqları doldurmağa çalışmış və buna qismən də olsa müvəffəq olmuşdur. Bundan əlavə əsərdə Məhəmməd Tərbiyətin "Danişməndani-Azərbaycan" əsərində adı çəkilməyən 20 dən çox şair və söz ustadının adını çəkmiş və onlar haqqında bioqrafik məlumat vermişdir.Belə şairlərdən biri də Əşəri Təbrizidir.

Qacar dövrünün şairi olan Əşəri Təbrizi XIX əsrdə yaşayıb yaratmışdır. Təzkirə müəllifi şair haqqında bilgi toplamaq üçün əz-Zəriə (IX cild), və əlyazma kataloqlarına müraciət etmişdir. Lakin bu söz ustadının həyatı barədə ətraflı məlumat əldə edə bilməmişdir. Heç bir mənbədə onun həyatı haqqında hər hansı bir bilgi verilməmişdir. Onun haqqında məlumatı yalnız divanı əsasında müəyyənləşdirmək olar. Əşəri Təbrizi Qacar dövründə yaşayan mədhsəra və həcvyazar şairlərindən hesab olunur. Qacar dövründə yazılan heç bir təzkirə və yazılı mənbələrdə onun anadan olma və vəfat tarixi qeyd olunmayib. Lakin aşağıdakı beytə əsasən 1305/1887-ci ilə qədər yaşadığı bəlli olur.Beytə əsasən demək olar ki, 1887-ci ilə qədər yaşamışdır. Bu zaman onun səksəndən az yaşı olmamalı idi:

غرض به فکر توان دید روی خوبانرا
بخواب امروز همچون هزار و سیصد و پنج

Onun fikri gözəllərin üzünü görməkdir,
Bugün yat, sanki 1305-ci il kimi. (4;212)

Əziz Dövlətabadi təzkirədə şairin bir müddət İsfahanda və Tehranda yaşadığı üçün isfahanlı, uzun müddət Təbrizdə yaşadığı üçün təbrizli olduğu haqqında məlumat vermişdir. Lakin şairin divanına əsasən onun İsfahandan olduğu məlum olur. Belə ki, divanda üç yerdə isfahanlı olduğuna işarə edilir. Şair onun kimliyini öyrənməyə çalışan bir nəfərə çavabında isafahadan olduğunu bəyan edib deyir:

تو از نژادیا، ز خان زادگان کاشانی
من از نژاد، گدازاده صفاهانم.

Sən əgər Kaşanın zadəgan xanlarındansansa,
Mən İsfahanın gədalarındanam. (4;213)

Başqa bir yerdə isə özünü iraqlı kimi təqdim edir:

نه زاهل مناجاتم و نه زاهل خرابات
فارغ منم از کشمکش کشق و کرامات
زین بیش اگر گوینم ترسم که بگویند
ترکامن که قمیش قویمه عراقی بحجامات

Nə minacat əhliyəm, nə xərəbat
Kəramət keşməkeşlərindən azad mənəm.
Bundan çox desəm qorxuram deyərlər türklər,
Ki, qəmiş qoyma ey iraqlı, həcəmata. (4;214)

Bundan başqa bir yerdə əmisi oğluna xitab edərək İsfahanda yaşadığına görə ora gəldiyini yazır:

ایاز روی تو گلشن فضای اصفاهان
ویاز رای تو روشن هوای اصفهان.
برای اینکه تو داری در اصفهان مسکن
کند دل من گهگه هوای اسفهان.
زمن بگو به محمد علی بن صادق
که ای بدستم بسته حنای اصفاهان.

Simandan gələn sərin meh Isfahan fəzasinin gülşənidir,
Ya İsfahan havası sənin fikrindən aydınlaşır.
Sən İsfahanda məskunlaşdığın üçün,
Mənim qəlbim tez-tez İsfahan havasın arzulayır.
Mənim adımdan Məhəmməd Əli bin Sadiqə de,
Isfahan xınasını əlimə yaxdım (4;212).

Əşəri Təbrizi uzun müddət Təbrizdə yaşamışdır və şeirlərinin çoxunu bu şəhərdə qələmə almışdır. Təbriz və İsfahandan başqa şair həm də Tehranda və Kermanda da yaşamışdır (2;218-219). Başqa bir yerdə yenə Təbriz şəhəri haqqında aşağıdakı beytləri deyir:

زند بر روضه فردوس طعنه ملکت تبریز
بعهد دولت شه ناصرالدینشاه ملک

Cənnət baxçasına sənin Təbriz mülkün tənə edir
Mülkləri bəzəyən Nasirəddin şahın dövlət hakimiyyətininə. (4;214)

Əşəri cavan yaşında xanımını itirmişdir. Yenidən evlənmək və bu xərcləri ödəmək üçün Qacar əmir və şahzadələrinə işləməyə başlamışdır. O şairlikdən əlavə həm də yazı-pozu işlərini görür və bunun müqabilində pul alırdı. Sənətkar musiqi ilə də məşğul olurdu. Belə ki, divanında musiqi istilahatları işlətməsi buna bariz nümunədir. Əşəri digər şairlərdən daha çox məsnəvi və Şahnaməyə meyl göstərmiş və onları daha çox mütaliə etmişdir. Onun divanı bu dastanlarda göstərilən təlmihlərlə zəngindir. Bu dastanlarda adı çəkilən surətləri öz divanına daxil etmişdir. Şair hind və türk dillərinə yaxşı bələd olmuşdur. Şeirlərində hər iki dildən olan sözləri işlətmişdir. Düzdür divanında türk dilində heç bir şeiri olmasa da, bir qəsidəsində tamamilə hind sözlərindən istifadə etdiyi nəzərə çarpır (6).

Əşəri Təbrizi məddah bir şair olmuş və divanının böyük hissəsini mədhiyyələr tutur. Onun mədh etdiyi insanlar arasında Məhəmməd şah, Nəsrəddin şah, Cahangir Mirzə, Bəhmən Mirzə, Qəhrəman Mirzə, Hülaku Mirzə, Əmir Kəbir kimi tarixi şəxsiyyətlər vardır. Qeyd etmək lazımdır ki, divandakı şeirlərin çoxunu mədhiyyələr tutur. Belə ki, şeirlərdə gah tənqid edir, gah da öyüd-nəsihət verir. Qacarın hərbi idarəsində baş alan rüşvətxorluq da şeirlərinin məzmununa çevrilmişdir. (1;79)Mirzə Məhəmməd Həsən Zənuzinin vəsfində deyir:

حبیب من حسن نام حسن رو
شنو این نکته زین مرد سخن گو.

Dostum mənim, adı Həsən, üzü hüsn
Fəsahətli söz deyən bu insandan bunu eşit(4;213).

Əşəri Təbrizinin 50-ə yaxın qəsidə və qitəsi həcvdən ibarətdir. O özünü həcvdə ən bacarıqlı və qüvvətli bir şair hesab edir və təkcə Ünsüri ilə müqayisə oluna biləcəyini iddia edirdi. Əşəri Təbrizi bəzi şəxsləri kiçik bəhanələr gətirərək çox alçaldıcı tərzdə tənqid etmişdir. Əşərinin şeirlərin şairlik məharəti və qüdrətinin vəsfindən daha çox zarafata bənzəyir. Əşəri divanında bir çox şairlərin adını çəkərək demişdir: “Mən bütün bu şairlərdən yüksəyəm.” Əşəri bu səbkidə yazan şairlər kimi qəsidələrini Xorasani, qəzəllərini isə İraqi üslubunda yazmağa çalışmışdır.

Şairin qələmə aldığı şeirlərdən məlum olur ki, o Mirzə Məhəmmədəli Süruş (Şəmsül-şüəra ləqəbi ilə məhşur olan alim və ədəbiyyatçı olmuşdur) ilə dostluq etmişdir. Belə ki, qəsidə və qəzəllərində onun adını dəfələrlə xatırlamışdır:

سروش ای سزاور تر نکته دانی
از من بشنو این نکته را گر توانی.

Ey Süruş, sən ən layiqli hazırcavab
Məndən əgər bacararsan eşit bu sualı.(4;213)

Əşərinin divanının üç nüsxəsi aşağıdakı kitabxanalarda mövcuddur:

1. Məclis kitabxanası (16222). Bu nüsxənin tarixi qeyd edilməyib. 307 vərəqdən ibarət olan bu nüsxə səliqəli nəstəliq xəttilə yazılmşdır. Qeyd etmək lazımdır ki, bu nüsxə daha

kamil və tərtib baxımından səliqəlidir. İbn Yusif Şirazi Məclis Şurayi Milli kitabxanasının kataloqunda deyir:

“ نویسنده از خود و سال نگارش نام نبرده: از قراین چنین استفاده میشود که به خط خود شاعر نخستین نسخه پاک نویس شده است.»

“Yazar özü və yazılma tarixi haqqında məlumat verməmişdir. Şairin öz xəttilə yazldığı ehtimal edilir.

2. Milli Təbriz kitabxanası (26666) –Hacı Məhəmməd Naxçivaninin bağışladığı məcmuələr arasında olan nüsxədə tarix göstərilməyib.Benqal nüsxəsi (110115)- Bu nüsxədə də yazılma tarixi göstərilməyib.

Əşəri divanı aşağıdakı kimi tərtib olunmuşdur: qəsidələr, təqzilat, qəzəllər, qitələr, saqinamə, üç məsnəvi, bir tərcibənd.

Əşəri Təbrizinin divanı İranda Fatimə İslami tərəfindən işlənib və redaktə olunub.

**Ədəbiyyat:**

1. الطهرانی آقا بزرگ. الذریعه (9)، تهران چاپخانه مجلس، 1953، ص.79.
2. فهرست کتابخانه مجلس شورای ملی. ج- 3، تهران، 1318-1321، چاپخانه مجلس، ص.218.
3. منزوی احمد. فهرست نسخه خطی فارسی. بخش-17، ج-3، تهران، 1349،ص. 2228.
4. دولت آبادی عزیز. سخنوران آذربایجان. ج-1، تبریز، 1377، ص.212.
5. 1/https://www.cgie.org.ir/fa/publication/entryview/29827
6. 5f0c415de9a7/LookInside.ahttps://www.cgie.org.ir/fa/publication/entryview/29827

***Шукюрова Жаля***

**АШАРИ ТЕБРИЗИ В ТВОРЧЕСТВЕ АЗИЗА ДОВЛЕТАБАДИ**

**Резюме**

Азиз Довлетабади один из продуктивных ученых XX века. Двухтомная работа «Сухенверани-Азербайджан» занимает особое место в азербайджанской литературе. В этой работе он дал информацию о более 20 поэтах, которые не были упомянуты в работе М.Тарбят «Данишмендани-Азербайджан». Одним из таких поэтов является Ашари Тебризи.

**Ключевые слова:** *литературоведение, хаджв, мадхие, Исфахан*

***Shukurova Jale***

**ASHARİ TABRİZİ İNTHEWORK OF AZİZ DOVLETABADİ**

**Resume**

Aziz Dovletabadi is one of the productive scientists of the twentieth century. This work of two volume "Suchenverani-Azerbaijan" occupies a special place in the Azerbaijani literature. In this work, he gave information about more than 20 poets who were not mentioned in the work of M. Tarbat “Danishmendani-Azerbaijan”. One of these poets is Ashari Tabrizi.

**Key words**: *literature, khajv, madhiye, Isfahan*

Redaksiyaya daxil olma tarixi: 17.06.2020
Çapa qəbul olunma tarixi: 1.07.2020

Filologiya üzrə elmləri doktoru **Nəsib Göyuşov**
tərəfindən nəşrə tövsiyə olunmuşdur.